**Dövlət Statistika Komitəsinin əməkdaşları BMT-nin Cinayətkarlıq və Narkotiklər üzrə Ofisi tərəfindən keçirilmiş təlimdə iştirak etmişlər.**



Dövlət Statistika Komitəsinin nümayəndələri Məlumatların yayılması şöbəsinin sektor müdiri Azər Əhmədov və Baş Hesablama Mərkəzinin VEB texnologiyalarının tətbiqi şöbəsinin rəis müavini Elgün Xəlilzadə 2013-cü ilin 12-16 mart tarixlərində Birləşmiş Millətlər Təşkilatının Cinayətkarlıq və Narkotiklər üzrə Ofisinin Mərkəzi Asiya Nümayəndəliyi tərəfindən "Mərkəzi Asiya və Azərbaycanda məlumatların işlənməsi və istifadə olunması sahəsində standartlaşdırma və dayanıqlıq" layihəsi çərçivəsində məlumatların təhlili və coğrafi məlumat sistemi "ArcGIS" kompüter proqramı üzrə keçirilmiş təlimdə iştirak etmişlər.

Təlim Bakı şəhərində Beynəlxalq Gömrük Təşkilatının Regional Mərkəzində keçirilmişdir. Təlimdə Daxili İşlər Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Dövlət Gömrük Komitəsinin nümayəndələri də iştirak etmişlər.

Birləşmiş Millətlər Təşkilatının Cinayətkarlıq və Narkotiklər üzrə Ofisinin məlumatların təhlili və coğrafi məlumat sistemi "ArcGIS" kompüter proqramı üzrə təlim iki mərhələdən "əsas" və "daha dərin" təlim kurslarından ibarətdir. 2013-cü ilin 12-16 mart tarixlərində keçirilmiş təlim "əsas" təlim kursuna aid olmuş və onun mövzuları coğrafi məlumat sisteminin əsaslarına, bu çərçivədə tətbiq olunan "ArcGIS" kompüter proqramının istifadəsinə, "ArcMap" proqramının interfeysi və onun alətləri imkanlarının öyrənilməsinə, statistik məlumatları rəqəmsal xəritələr vasitəsi ilə təsvir olunmasına, xəritələrin hazırlanması və onlara dizayn verilməsinə həsr olmuşdur.





Təşkilatçılar tərəfindən təlim kursu üzrə verilən tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi üzrə iştirakçılara ballar hesablanmış, I, II və III yerlər və bu yerlərə uyğun olaraq mükafatlar təsis edilmişdir. Sonda bütün ballar toplanaraq qaliblər müəyyən edilmişdir. Beləliklə, Dövlət Statistika Komitəsinin Məlumatların yayılması şöbəsinin sektor müdiri Azər Əhmədov birinci yerə, Baş Hesablama Mərkəzinin VEB texnologiyalarının tətbiqi şöbəsinin rəis müavini Elgün Xəlilzadə isə üçüncü yerə layiq görülmüşdür.

Birləşmiş Millətlər Təşkilatının Cinayətkarlıq və Narkotiklər üzrə Ofisinin məlumatların təhlili və coğrafi məlumat sistemi "ArcGIS" kompüter proqramı üzrə ikinci - daha dərin təliminin cari ilin 1–6 aprel tarixlərində keçirilməsi nəzərdə tutulmuşdur.